# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

16 (111) 08 sentyabr 2018-ci il İctimai-siyasi qəzet


## Azərbaycan və Xorvatiya prezidentlərinin təkbətək görüşü

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Xorvatiya Respublikasına rəsmi səfərə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dal-ğalandığı Zaqreb şəhərinin "Franyo Tucman" aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

"Franyo Tucman" aeroportunda Azərbaycan Prezidenti İlham Əliyevi Xorvatiya Prezidenti ofisinin rəhbəri xanım Anamariya Kiriniç və digər rəsmi şəxslər qarşıladılar.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycan ilə Xorvatiya arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı.

Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Soçidə Azərbaycan və Rusiya prezidentlərinin görüşü olub

Soçi şəhərindəki "Boçarov Ruçey" dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Dövlət başçıları görüşdə çıxış etdilər.

Rusiya Prezidenti Vladimir Putin dedi:

- Hörmətli İlham Heydər oğlu.

Əziz dostlar.

İcazə verin, Sizi Soçidə ürəkdən salamlayım. Qeyd etmək istərdim ki, bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və bu da təbiidir, qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi çox genişdir. Biz bunu strateji tərəfdaşlıq adlandırırıq. Münasibətlərimiz həm siyasi, həm də iqtisadi istiqamətdə inkişaf edir. Keçən il qarşılıqlı əmtəə dövriyyəsinin həcmi 34 faiz, hətta 34 faizdən də çox artıb, bu ilin birinci yarısında isə mülki təyinatlı məhsulların satış həcmi 20 faiz artıb. Bu, çox yaxşı göstəricidir. Lakin təbii ki, bizim həmişə danışmağa mövzumuz var. Çox şadam ki, Siz bizim dəvətimizi qəbul edib bu gün Rusiyaya gəlmisiniz. Xoş gəlmisiniz!

Azərbaycan Prezidenti İlham Əliyev dedi:



- Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç.

İlk növbədə, bizi Rusiyaya səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür etmək istərdim. Bizim görüşlərimizə həmişə şadam. Sizin qeyd etdiyiniz kimi, biz müntəzəm surətdə görüşürük və bu görüşlər münasibətlərimizə dinamizm gətirir. Bütün sahələrdə əlaqələrimizin inkişaf səviyyəsindən biz də məmnunuq. Münasibətlərimiz tamdəyərli, çox səmərəli şəkildə inkişaf edir, fəal siyasi dialoq xarakteri daşıyır. Siz əmtəə dövriyyəsinin artmasını qeyd etdiniz. Bu da ölkələrimizin iqtisadiyyatlarında müsbət meyillərə dəlalət edir. Bu, həm də onu göstərir ki, iqtisadi əməkdaşlığın böyük potensialı var. Əminəm ki, əmtəə dövriyyəsi qarşıdakı illərdə də artacaq. Biz enerji, nəqliyyat sahələrində əməkdaşlıq edirik.

Əlbəttə, bu gün biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı məsələləri, regional problemləri də müzakirə edəcəyik. Bu gündəlik yetərincə genişdir. Əminəm ki, bizim bugünkü görüşümüz münasibətlərimizə əlavə impuls verəcək. Dəvətə görə bir daha təşəkkür edirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov ilə görüşü olub

Sentyabrın 3-də Çolpon-Ata şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşü olub.

Prezidentlər görüşdə çıxış etdilər.

Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov dedi:

- Hörmətli İlham Heydər oğlu.

Sizi və nümayəndə heyətinin üzvlərini Qırğızıstanın mirvarisi - İssık-Kulun sahilində səmimi qəlbdən salamlayıram. Mən şadam ki, bu gün bizə ölkələrimiz arasında əməkdaşlığın aktual məsələlərini müzakirə etmək üçün belə gözəl imkan yaranıb. Sizin bildiyiniz kimi, Qırğız Respublikası bizim ölkələrimiz arasında, qardaş Azərbaycan ilə qarşılıqlı etimad və hörmət əsasında dostluq münasibətlərinin gələcək inkişafına çox böyük önəm verir. Biz həmişə dostlarımızla məsələlərin bütün spektri üzrə məzmunlu söhbətə açığıq və hazırıq. Mən Sizi səmimi qəlbdən təbrik etmək istəyirəm. Bu il ölkəniz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini



qeyd edir. Mən bu milli bayram münasibətilə Sizi təbrik edirəm və vaxt tapıb gəldiyinizə görə çox sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dedi:

- Çox sağ olun, hörmətli cənab Prezident, dəvətə görə minnətdaram.

Mən qardaş Qırğızıstana, belə gözəl diyara səfər etməkdən çox şadam. Siz dediyiniz kimi, İssık-Kul Qırğızıstanın mirvarisidir. Düşünürəm ki, bu məkan bütün dünya üçün əhəmiyyətlidir. Bu, qırğızları və bu gözəl yerə gələnlərin hamısını sevindirən nadir təbii abidədir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitinin təşkili münasibətilə Sizi təbrik etmək istərdim. Əminəm ki, bu, bizim birliyimizi, əməkdaşlığımızı təsdiq edən, həmçinin ikitərəfli münasibətlərimizi müzakirə etmək üçün yaxşı imkan yaradan əhəmiyyətli tədbirdir. Biz Qırğızıstanla əməkdaşlığa mühüm əhəmiyyət veririk. Əməkdaşlığı bütün istiqamətlər üzrə - həm siyasi, həm də iqtisadi sahələrdə artırmaq niyyətindəyik. Nəqliyyat sahəsində əməkdaşlıq üçün yaxşı perspektivlər açılır. Əminəm ki, bizim bugünkü görüşümüz gələcəkdə də uğurla inkişaf edəcək münasibətlərimizə yeni təkan verəcək. Bir daha qonaqpərvərliyə görə sağ olun.

AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatında "Üçüncü ən qədim "T" İdarəsinin İsveç qambiti" və "Fədakarlar gərəkdir" kitablarının təqdimatı olub

***Avqustun 21-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının binasında "Üçüncü ən qədim "T" İdarəsinin İsveç qambiti" və "Fədakarlar gərəkdir" kitablarının təqdimat mərasimi keçirilib. "Üçüncü ən qədim "T" İdarəsinin İsveç qambiti" kitabının həmmüəllifləri Şamil Süleymanov və Vladimir Mişindir. "Fədakarlar gərəkdir" kitabının həmmüəllifləri isə Şamil Süleymanov və Şövkət Kərəmovadır.***




AZƏRTAC xəbər verir ki, Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov təqdimat mərasimində çıxış edərək hər iki kitabın Azərbaycan oğullarının xüsusi xidmət orqanlarındakı fədakar əməyindən bəhs etdiyini bildirib.




Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov qeyd edib ki, Azərbaycanda gənclərin vətənpərvərlik, tariximizə, milli adət-ənənələrimizə, maddi-mənəvi dəyərlərimizə hörmət, dövlətə, xalqa sədaqət ruhunda yetişdirilməsi və tərbiyə edilməsi istiqamətində aparılan uğurlu və məqsədyönlü siyasətin həyata keçirilməsində digər aidiyyəti



orqanlar və təşkilatlarla yanaşı, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) də fəallığı ilə seçilir. Bu işdə DTX-nin veteranlarının, xüsusilə Şamil Süleymanovun rəhbərlik etdiyi "Azərbaycan Xüsusi Xidmət Orqanlarının Veteranları" İctimai Birliyinin əməyi danılmaz və təqdirəlayiqdir.

Sonra hər iki nəşr haqqında məlumat verilib.

Bildirilib ki, "Fədakarlar gərəkdir" kitabında kəşfiyyat və əks-kəşfiyyat sahəsində zəngin təcrübəsi olan, əqidəsinə sadiqliyi ilə seçilən xüsusi xidmət orqanı veteranı, dəyərli ziyalı Şamil Süleymanovun mənəvi keyfiyyətlərindən, şərəfli xidmət yolundan bəhs olunur. Nəşrdə Ş.Süleymanovun ulu öndər Heydər Əliyev ilə ilk tanışlığı, dahi şəxsiyyətin rəhbərliyi altında bu çətin xidmətdə yüksək keyfiyyətlərə yiyələnməsi, onun kəşfiyyatçı kimi iştirak etdiyi əməliyyatlar, habelə hazırkı ictimai fəaliyyəti və rəhbərlik etdiyi veteranlar təşkilatının gördüyü işlər barədə söhbət açılır.

Qeyd olunub ki, "Üçüncü ən qədim "T" İdarəsinin İsveç qambiti" romanı 1980-ci illərdə inkişaf etmiş Avropa ölkələrindən birində cərəyan edən real hadisələr əsasında yazılıb. Romanın Azərbaycan dilində nəşrinin redaktoru və rus dilindən tərcüməçisi yazıçı Azər Hacıbəylidir. Rus dilində variantı 2013-cü ildə işıq üzü görən romanın "Ön söz"ünün müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadədir. Kitabda Ş.Süleymanovun bilavasitə iştirakçısı olduğu real hadisələr yüksək dəqiqliklə oxuculara çatdırılır. Əsərin qəhrəmanının müvəffəqiyyət qazanmasının əsasında onun peşəkarlığı ilə yanaşı, yüksək istedadı da durur.




Tədbirdə "Azərbaycan Xüsusi Xidmət Orqanlarının Veteranları" İctimai Birliyinin sədr müavini Azər Qarayev, Nərimanov Rayon Ağsaqqallar Şurasının sədri Mircəfər Həsənov, yazıçı Azər Hacıbəyli, uzun müddət milli təhlükəsizlik sistemində xidmət etmiş ehtiyatda olan polkovniklər Əliheydər Dadaşov, Sücəddin Abdullayev, polis orqanları veteranı, yazıçı Georgi Zapletin, veteranlar və başqaları çıxış edərək böyük və şərəfli həyat yolu keçən, zəngin bilik və təcrübəsini gənc nəslə öyrətmək işində yorulmadan çalışan Şamil Süleymanovun fəaliyyəti haqqında ətraflı məlumat verib, Azərbaycan dövləti və xalqı qarşısında xidmətlərinə görə ona minnətdarlıqlarını bildiriblər. Çıxış edənlər bu sanballı əsərlərin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində, hərbi qulluqçuların ruh yüksəkliyinin artırılmasında önəmini xüsusi vurğulayıblar. Bu kitabların gələcəkdə Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasında tədris vəsaiti kimi istifadəsinin əhəmiyyəti qeyd olunub.

Şamil Süleymanov çıxış edərək Respublika Veteranlar Təşkilatına və tədbir iştirakçılarına təşəkkürünü bildirib. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə çalışdığı illərlə bağlı xatirələrini bölüşən Şamil Süleymanov Ümummilli Liderin uzaqgörən siyasətinin Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində ölkəmizdə ictimai-siyasi sabitliyin dönməz xarakter aldığını, Azərbaycanın mühüm uğurlar qazanaraq regionun lider dövlətinə çevrildiyini vurğulayıb.

Veteranlara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq edən Şamil Süleymanov Azərbaycanın təhlükəsizliyinin qorunmasının gözəgörünməz cəbhədə çalışan hər bir əməkdaşın müqəddəs vəzifəsi olduğunu deyib və bu sahədə fəaliyyət göstərən hər bir şəxsə uğurlar arzulayıb.

# Liderlərin görüşü: Azərbaycan-Rusiya əlaqələri strateji tərəfdaşlığın məzmununa tamamilə uyğundur

Azərbaycan öz coğrafi mövqeyi, nəqliyyat infrastrukturu, inkişaf etmiş iqtisadiyyatı, rus mədəniyyəti ilə ənənəvi əlaqələri baxımından Rusiya üçün böyük maraq və dəyər kəsb edir. Xüsusən ona görə ki, respublikada rus dili, birgə tarix, iki yüz il ərzində xalqlarımızı birləşdirən nə varsa, hamısı qayğı ilə əhatə olunub və qorunur.

Bu fikri Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik, siyasi elmlər üzrə fəlsəfə doktoru Cəlil Xəlilov AZƏRTAC-a müsahibəsində Azərbaycan və Rusiya prezidentlərinin sentyabrın 1-də Soçidə keçirilmiş görüşünü şərh edərkən söyləyib.

Şübhəsiz ki, yüksək səviyyədə müntəzəm görüşlər dövlətlərarası münasibətlərə dinamizm verir, lakin indiki halda bu münasibətlər fundamental əhəmiyyətə malikdir. Hər iki dövlətin başçısı öz çıxışlarında iki ölkə arasında əlaqələrin strateji xarakterini vurğulayıb.

Cəlil Xəlilov qeyd edib ki, biznes sahəsindən siyasətə keçən "strateji tərəfdaşlıq" termini iki ölkənin fəaliyyətinin əlaqələndirilməsinin yüksək formasını, siyasi, sosial, mədəni, iqtisadi sahələrdə resursların qarşılıqlı səmərəli kooperasiyasını göstərir. Azərbaycan və Rusiya arasında əlaqələr strateji tərəfdaşlığın ruhuna və məzmununa tamamilə uyğundur.

İqtisadiyyatın və mədəniyyətin bir çox sahələrində Azərbaycanın Rusiya ilə əməkdaşlıq perspektivləri təqdirəlayiqdir. Belə ki, investisiyalar, ticarət əlaqələri, nəqliyyat kommunikasiyaları genişlənir, humanitar və turizm sahəsində əlaqələr dərinləşir. 2017-ci ilin yekunlarına görə, Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsi, demək olar ki, 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Rusiya qeyri-neft sektorunda idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır. Rusiyanın bir çox şirkətləri Azərbaycanda uğurla işləyir. Energetika, maşınqayırma, kimya, əczaçılıq sənayesi sahələrində kooperasiya dərinləşir. Cənubi Asiyanı və Yaxın Şərqi Avropa ilə birləşdirəcək "Şimal-Cənub" qitələrarası nəqliyyat dəhlizinin yaradılması üzrə birgə işlər böyük beynəlxalq əhəmiyyət daşıyır.

Azərbaycanın bilavasitə Rusiyanın regionları ilə fəal əməkdaşlığı diqqət çəkir. Rusiya Federasiyasının 70-dən çox subyekti Azərbaycanla iqtisadi, mədəni əlaqələr saxlayır. Elm, təhsil, ədəbiyyat və incəsənət sahələrində çox geniş əlaqələr mövcuddur.

Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov qeyd edib ki, Azərbaycan Rusiyanın geostrateji maraqlarına anlaşıqlı yanaşır. Rusiya da öz növbəsində, Qarabağ problemi, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faiz işğal



edilməsi ilə bağlı Azərbaycanın narahatlığını bölüşür.

"Azərbaycan ictimaiyyəti bu münaqişənin həllində Rusiyanın daha fəal iştirakına ümid bəsləyir. Rusiya öz hərbi müttəfiqi Ermənistana Azərbaycanın işğal edilmiş ərazilərinin boşaldılmasına dair BMT qətnamələrini icra etməklə bağlı birmənalı təsir göstərə bilərdi. Biz bu istiqamətdə Rusiya tərəfdən daha qətiyyətli addımlar gözləyirik", - deyə siyasi elmlər üzrə fəlsəfə doktoru Cəlil Xəlilov bildirib.

Bakı, 3 sentyabr,
AZƏRTAC

# Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı şəhər ağsaqqalları ilə görüşüb

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov şəhər ağsaqqalları ilə görüşüb. Görüşdə elm, səhiyyə, mədəniyyət, idman və digər sahələri təmsil edən 50-yə yaxın ağsaqqal ziyalı iştirak edib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov ağsaqqalları salamlayaraq, vaxt ayırıb görüşə gəldikləri üçün onlara təşəkkür edib. Qeyd edib ki, tarixən mədəniyyət beşiyi hesab olunan Gəncə həm də ziyalılar şəhəridir.



"Bu görüşü təşkil etməkdə əsas məqsədim, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ağsaqqalların fikirlərini öyrənmək, şəhərdə olan problemlər barədə məlumat almaq, onların həlli istiqamətində təkliflərini dinləməkdir. Bu baxımdan sizin dəstəyinizə ümid edirəm", - deyə Niyazi Bayramov bildirib.

Görüşdə AMEA Gəncə bölməsinin akademik katibi Fuad Əliyev, Dövlət Aqrar Universitetin rektoru İbrahim Cəfərov, Gəncə Dövlət Universitetinin (GDU) rektoru Yusif Yusibov, Azərbaycan Texnologiya Universitetinin rektoru Akif Süleymanov, GDU-nun prorektoru Gülsüm Fətəliyeva, Gəncə şəhər Veteranlar təşkilatının sədri Yusif Məmmədov, Böyük Vətən müharibəsi veteranı Tofiq Hüseynov, Ağsaqqallar Şurası Gəncə şəhər Təşkilatının sədri Xalid Qurbanov, Gəncə Dövlət Dram Teatrının rejissoru Vaqif Şərifov və digərləri çıxış edərək, Gəncə şəhərinə yeni təyin olunan icra hakimiyyəti başçısına işlərində uğurlar arzulayıblar. Bildirilib ki, Gəncə və gəncəlilər hər zaman dövlətçiliyə xidmət edib, daim ölkə rəhbərinin yanında olublar. Şübhəsiz ki, onlar bundan sonra da Gəncənin inkişafı üçün çalışacaq, şəhər rəhbərinin yanında olacaq, əllərindən gələn köməyi göstərəcəklər.

Çıxışlar zamanı həlli vacib hesab olunan məsələlərlə bağlı məlumatlar verilib, bir sıra təkliflər səsləndirilib. Görüş qarşılıqlı diskussiya şəklində davam edib.

# Gənc əsgərlər Vətənə sədaqət andı içiblər



Müdafiə Nazirliyinin Ağcabədi rayonunda yerləşən “N” saylı hərbi hissəsində əsgər valideynləri və yaxınları üçün “Açıq qapı” günü və gənc əsgərlərin Vətənə sədaqət andı içməsinə həsr olunan mərasim keçirilib.

Mərasimdə müdafiə naziri, general-polkovnik Zakir Həsənovun gənc əsgərlərə ünvanladığı təbrik məktubu oxunub. Yuxarı komandanlığın nümayəndələri çıxışlarında gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edib, onlara nümunəvi və nizam-intizamla xidmət etməyi, silah və texnikanın sirlərinə dərindən yiyələnərək döyüş qabiliyyətlərini daim artırmağı, komandir-rəis heyətinin əmr və tapşırıqlarını dəqiq və vaxtında yerinə yetirməyi, işğal altındakı torpaqlarımızın azadlığı uğrunda döyüşə hər an hazır olmağı tövsiyə ediblər.

Çıxış edən valideynlər gündən günə qüdrətlənən Azərbaycan Ordusu ilə fəxr etdiklərini bildirib, Vətənə, dövlətə sədaqət andı içərək torpaqlarımızı şərəflə qorumaq məsuliyyətini üzərlərinə götürən gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıblar.

Sonra bədii kompozisiya nümayiş olunub, gənc əsgərlər təntənəli marşın sədaları altında tribuna önündən keçiblər.

AZƏRBAYCAN VETERANI

# Müharibədən də amansız olan zaman: 30 minlik diviziyadan sağ qalan 2 nəfərdən biri...

Faşizm üzərində qələbənin yaşı artdıqca bu qələbədə payı olan insanların da sıraları seyrəlir. Dünyanın ən qanlı müharibəsi haqqında çox filmlər çəkilib, çox kitablar yazılsa da, əsl həqiqətləri canlı şahidlərin dilindən eşitmək insanda daha dolğun məlumat yaradır. Belə şahidlərdən biri də Mingəçevir şəhərində yaşayan Böyük Vətən müharibəsi iştirakçısı Baba Əliyevdir.



1921-ci ildə Ağdaş rayonunda anadan olan Baba Əliyev 21 yaşında vətənin müdafiəsinə qoşulub. Buna qədər isə Zaqatala Pedaqoji Texnikumunu bitirməyə, Qəbələ rayonunun Qum kəndində müəllim işləməyə də imkan tapıb. Lakin vətənin dar günündə 650 min soydaşımız kimi o da silaha sarılıb.

İlk günlərdən xidmətdə fərqlənən Baba Əliyev elə ilk döyüşündə "Za otvaqu" (Şücaətə görə) medalıyla təltif edilib. Bundan sonra savad və bacarığına görə komsomol partiya katibi seçilərək döyüşlərdə iştirak etməklə yanaşı təbliğat işi ilə də məşğul olub. Elə bu səbəbdən də 97 yaşlı veteran müharibə vaxtı adi əsgərlərin bilmədiyi çox məlumatlardan xəbərdar olub.

Şücaətli veteran o günləri belə xatırlayıb: "Təzə-təzə müharibə başlayanda azərbaycanlılara etibar etmirdilər. Bu, Stalinin qulağına çatanda Bağırovu yanına çağırtdırır, azərbaycanlıları döyüşkən xalq kimi tanıdığını, bu söz-söhbətin haradan qaynaqlandığını soruşur. Bağırov ona cavab verir ki, "Yoldaş Stalin, bunun bir səbəbi var, o da rus dilini bilməməklə bağlıdır. Siz icazə verin, mən milli diviziyalar yaradım, onlar qəhrəmanlıqlar göstərməsələr, mən özümü güllələyəcəm". Bundan sonra Bağırov azərbaycanlılardan ibarət 5 diviziya yaradır ki, indi də hər birinin qəhrəmanlığından danışılır".

1942-ci ilin yayından 223-cü milli atıcı diviziyanın tərkibində döyüşlərə qatıldığını deyən müharibə iştirakçısı həmin dövrdə ən ağır döyüşlərin Şimali Qafqazda getdiyini qeyd edib: "Buna səbəbi o idi ki, Hitler döyüşləri analiz edərək generallarına səhv istiqamətdə döyüşdüklərini, ilk olaraq Leninqrad, Moskva, Stalinqrad kimi şəhərlərdən öncə Bakını ələ keçirməli olduqlarını deyir. SSRİ ordusunu 80-90% benzin və sürtgü yağları ilə təmin edən Bakını tutmaq üçün əsas qüvvələrini Şimali Qafqaza göndərir".

Bakıdan Qroznuya kimi 200-dək müdafiə xətti yaradıldığından danışan veteran hərbçi almanları yalnız Terekin sahilində dayandırmağın mümkün olduğunu söyləyib: "1942-ci ilin dekabrın 8-də bütün Şimali Qafqaz cəbhəsi boyu əks hücuma başladıq. Bir neçə alay getdi, qırıldı. Bundan sonra Moskva cəbhəsindən göndərilən hərbi aviasiya polkunun köməyilə almanların cəbhəsini yardıq. O hücumun davamı olaraq 223, 406 Azərbaycan milli diviziyaları Moldovanı, Rumınıyanı azad edib Yuqoslaviyaya kimi getdi. Qələbəni Belqradın mərkəzində qeyd elədik".

Zamanın müharibədən daha amansız olduğunu deyən Baba Əliyev 30 minlik diviziyadan hazırda yalnız 2 nəfərin sağ qaldığını təəssüflə qeyd edir.

*İlham Mustafa, Sputnik Azərbaycan*

# Böyük Vətən müharibəsinin ağ xələtli şahidi

***"Hamı inanırdı ki, bu konfransdan sonra Berlinə doğru hərəkət edən Sovet ordusu tezliklə Almaniyanın paytaxtında olacaq"***

Böyük Vətən müharibəsi iştirakçısı Səfər Musayev 1922-ci ildə anadan olub.

S.Musayev ixtisasca feldşerdir, 1938-1941-ci illərdə Bakı Feldşerlik Məktəbində təhsil alıb. 1943-cü ildə hərbi xidmətə də elə tibb işçisi kimi çağırıblar. Müharibəyə gedən yolu Şimali Qafqazdan başlayıb. Ən məsuliyyətli yerlərə tibb işçisi kimi göndərilib. Cəbhə xəttinə yaxın yerdə yaralıları qəbul eləmək üçün təşkil olunan məntəqədə fəaliyyət göstərib.

Bir müddət Gürcüstanın Orconikidze hospitalında daha sonralar Gürcüstanın səhiyyə naziri olmuş Aşot Quraşvili, dövlət vəzifəsinə yüksəlmiş Tamara Cuqaşvili ilə bir yerdə çalışıb. Oradan isə Qara dəniz sahillərinə doğru - müharibənin daha şiddətli, amansız döyüşlərinin getdiyi Tuapse şəhərinə aparılıb.

Rus dilində mükəmməl danışan Musayev hərbi xidmətdə bu dili bilməyən azərbaycanlılara da kömək edirmiş. Dediyinə görə, rus dilini bilməyən həmvətənlərimiz üçün baş verən dəyişikliklər barədə söhbətləri tərcümə edir, başa salırmış. Bir sözlə, müharibədə iştirak edən xalqlar arasında ünsiyyət qurmaq, tərcüməçilik eləmək vəzifəsini də yerinə yetirirmiş.

Ağsaqqal veteran o günlərlə bağlı bir xatirəsini də bizimlə bölüşür: "Şimali Qafqazda bir əsgər üç dəfə cəbhədən qaçmışdı. Birincidə bağışlamışdılar, ikincidə iş verib göndərmişdilər cəbhəyə, üçüncü dəfədə isə güllələnmə hökmü çıxarılmışdı. Bütün diviziya və polkları dağın ətəyinə topladılar. Taxtadan hündür yer hazırladılar. Qollarından edam ağacına bağladılar. Düzülən polkların arasında səsgücləndiricilər qoyuldu. Məni də yanlarında saxladılar ki, tribunalın çıxışını, hökmünü tərcümə edim".

"Hökmün icra olunduğu yerə çox yaxın idim. Güllələnməni icra edən bir erməni kapitan idi. İlk atəş açıldı. Gördüm ki, buna heç nə olmadı. Bizə tərəf baxır. Başa düşdüm ki, aldadıcı manevr olub. Birdən erməni kapitan qoburundan tapançanı



çıxararaq dərhal güllələnməni özü icra elədi. Atəşdən sonra məhkum əsgərin başı müvazinətini itirərək yana əyildi. Hadisə mənə çox pis təsir elədi. Bu səhnə indinin özündə də həmişə gözümün qabağında canlanır", - deyə danışır Səfər kişi.

Qocaman veteran bildirir ki, 1943-cü ilin dekabrında baş tutan Tehran konfransından sonra müharibənin taleyi SSRİ-nin xeyrinə dəyişdi: "Cəbhənin hər yerində yol hərəkəti nişanları vurulurdu. Moskvadan Berlinə doğru istiqamətlənmiş ox işarələri göstərilirdi. Hamı inanırdı ki, bu konfransdan sonra Berlinə doğru hərəkət edən Sovet ordusu tezliklə Almaniyanın paytaxtında olacaq".

Səfər Musayev tibb elmi ilə yanaşı milli və dünya musiqisinin də incəliklərinə bələddir. Bu, danışdığı əhvalatdan anlaşılır: "Kislovodskda "Çayka" adlı restorandaydım. Bir nəfər bədəncə yekə adam gəlib orda oturdu. Orkestr musiqi səsləndirəndə bu adam bədən hərəkətləri ilə oynamağa başladı. Mən də hərəkətinə görə ona iradımı bildirdim". "İradımdan sonra, "Məni tanımadın?"- deyə sual verdi. Sonra özünü təqdim elədi ki, Şimali Qafqaz Bəstəkarlar İttifaqının sədridir. Hərəkətini onunla izah elədi ki, musiqi çox yaxşı təəssürat bağışladığına görə dayana bilməyib". Sonra aralarında maraqlı dialoq yaranır: "Ondan soruşdum ki, "musiqini yaxşı bilirsənmi?" "Yaxşı bilirəm", cavabını verdi. Sual verdim ki, "Dmitri Şostokoviçin bəstələdiyi "Altıncı simfoniya"nın mövzusu haradan götürülüb?" "Dedi ki, çox müasir, inqilabi simfoniyadır". Bundan artıq cavab verə bilmədi. Sualıma özüm geniş və əhatəli cavab verməli oldum". S.Musayev bu barədə məlumat verir: "Altıncı simfoniya" 1943-cü ildə Leninqradın blokadası zamanı professor Dmitri Şostokoviç tərəfindən bəstələnib. Bu simfoniyada təyyarələrin gurultusu, insanların qəzəb və fəryadı cəmləşib. Hətta bu simfoniyaya mübarizə və qəzəb simfoniyası adı da vermək olar". S.Musayev danışır ki, bu məlumatı Şimali Qafqaz Bəstəkarlar İttifaqının sədrinə danışanda həmin adam heyran qalıb. Bundan sonra ona Betxovenin "Altıncı simfoniya"sı haqqında da danışıb: "Danışıb qurtarandan sonra həmin adam mənim qolumdan tutaraq orkestrin yanına apardı. Onlara dedi ki, "bu yoldaş bütün bəstəkarların simfoniyalarını əzbərdən bilir, bir musiqi desin, siz də ifa eləyin". Mən də bir onluq verib Azərbaycan mahnısı "Arzu qızımı" sifariş elədim. Restoranın solisti olan erməni qızı da mahnını oxudu".

Səfər Musayev Ukrayna cəbhəsində artilleriya batareyasında tibb işçisi olub. Zabit rütbəsi alıb xidməti davam etdirmək istəsə də, səhhətində yaranmış problem buna imkan verməyib. 1946-cı ildə ordudan tərxis olunaraq Azərbaycana, doğma Bərdə rayonu Mustafaağalı kəndinə qayıdıb.

Dediyinə görə, veteran tibb işçisinə dövlət daim diqqətlə yanaşıb, dəfələrlə döş nişanları ilə təltif edilib. 96 yaşlı veteranımız indiyədək aldığı medalları, döş nişanlarını şərəflə yaxasında gəzdirir.

# Həqiqi vətənpərvər ziyalılarımız

Mən uzun müddət daxili işlər orqanlarında, rayon icra hakimiyyətində, telekommunikasiya qovşağında hüquqşünas kimi çalışmışam. Polkovnik-leytenant rütbəsinə qədər yüksəlmişəm. Gecə-gündüz xalqın keşiyində durmaq, erməni təcavüzkarlarına qarşı döyüşlərdə iştirak etmək ömür səhifələrimin əsasını təşkil edib. İndi hal-hazırda ehtiyatdayam.



Bununla belə ictimai həyatdan geri qalmıram. Daim Vətənimizin daha da qüvvətlənməsi və çiçəklənməsi uğrunda, gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi sahəsində öz vətəndaşlıq borcumu yerinə yetirirəm. Bu gün rayon Veteranlar Təşkilatının sədri və AQMƏVŞAİB rayon şurasının sədr müavini kimi çox mühüm və əhəmiyyətli vəzifədə çalışıram. Bütün bunları deməkdə məqsədim odur ki, yaşadığımız dövrdə gənclərin vətənpərvərlik tərbiyəsi xüsusi olaraq diqqət mərkəzində olmalıdır.

Bu sahədə önəmli uğurlar qazanan, vətənpərvərlik missiyasını prioritet məsələ kimi öz elmi, pedaqoji, ictimai-siyasi fəaliyyətində əsas tutan bir pedaqoq, bir rəhbər işçi, bir vətənpərvər haqqında danışmaq istəyirəm. O, harada və hansı vəzifədə işləməyindən asılı olmayaraq sözün əsl mənasında vətənpərvərdir. Öz səmimi hərəkətləri, sadəliyi, diqqətliyi və qayğıkeşliyi ilə hamının rəğbətini qazanıb. Bütün hallarda vətənpərvərlik prinsiplərinə əməl edib, gənclərin şüuruna, dünyagörüşünə təsir edən nümunələr əsasında elə tədbirlər həyata keçirib ki, bu da onların qəlbində ülvi duyğular oyadıb. Hamıya da təsir göstərib ki, Vətənin qədim tarixini, elmini, mədəniyyətini, tarixi şəxsiyyətlərini, dövlət rəmzlərini öyrənsinlər.

Bu şəxsi sizə təqdim edirəm: O, həmişə tutduğu vəzifənin, elmi dərəcəsinin, qazandığı müxtəlif titullarının onun təqdimatında yazılmasının əleyhinədir. Bu da onun təvazökarlığından irəli gəlir. Ağababa Bayram oğlu İbrahimov, Astara Pedaqoji Kollecinə rəhbər təyin edildiyi il yarım ərzində rayonun elə bir tarixi ərazisi yoxdur ki, ora getməsin.

Danılmaz faktdır ki, vətənpərvərlik tərbiyəsi yönümündə həyata keçirilən tədbirlər tədbir xatirinə keçirmək xarakteri daşımamalıdır. Bu iş hər gün, hər saat mütəmadi olaraq aparılmalıdır. Mən il yarım ərzində kollecdə keçirilən əksər tədbirlərdə iştirak etmişəm. Müəllim və tələbələr qarşısında çıxışlarım olub. Müşahidələrim göstərir ki, kollecdə demokratik və çox sağlam mühit yaradılıb, müstəqil və sərbəst düşüncəyə imkan verilib. Vətənpərvərliklə bağlı tədbirlərdə tələbələr hərbi formada iştirak edirlər.

Bir sözlə, Ağababa müəllim vətənpərvərlik missiyasını sidqi ürəkdən və əməli şəkildə yerinə yetirir. Məhz bütün bunları nəzərə alaraq mənim təqdimatım əsasında Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Ağababa İbrahimovu "Vətənpərvərlik işində xidmətlərinə görə" medalı ilə təltif etmişdir. Mən çox qürur hissi keçirirəm ki, bu medalı Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyinə həsr olunan tədbirdə pedaqoji və tələbə kollektivinin qarşısında şəxsən Ağababa müəllimə təqdim etmişəm. Medalın təqdimatından sonra Ağababa müəllim öz fikirlərini bizimlə bölüşdü.

Ən əvvəl, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin rəhbərliyinə bu yüksək etimada görə minnətdarlığımı bildirirəm. Xüsusi olaraq vurğulayıram ki, bu medal təkcə mənim deyil, kollecin müəllim və tələbə kollektivinin də əməyinə və fəaliyyətinə verilən qiymətdir. Malik olduğum mükafatlar sırasında bu medalın öz xüsusi yeri var. Çünki bu medal mənə vətənpərvərlik işində xidmətlərimə görə verilib.

Bu gün vətənpərvərlik tərbiyəsi həmişəkindən daha vacib, daha önəmlidir.

Azərbaycanımızın iyirmi faizdən çox ərazisi işğal altındadır. Dağlıq Qarabağ və onun ətrafındakı rayonlar hələ azad edilməyib. Cəbhə bölgəsində bu gün də təxribatlar baş verir. Bütün bunlar göstərir ki, biz hər zaman, hər yerdə, istər ön cəbhədə, istərsə də arxa cəbhədə ayıq və sayıq olmalıyıq. Məhz bu baxımdan yeniyetmə və gənclərimizin vətənpərvərlik tərbiyəsinə daha diqqətlə və daha ciddi yanaşmalıyıq. Yeniyetmə və gənclərimizdə döyüşkənlik ruhunu və vətənpərvərlik hissini formalaşdırmaq, onları igid, qəhrəman kimi yetişdirmək istəyiriksə, vətənpərvərlik tərbiyəsini inandırıcı şəkildə həyata keçirməliyik. Yeniyetmə və gənclərdə milli mənlik şüurunu inkişaf etdirmək, onlarda vətənpərvərlik hisslərini tərbiyə etmək tarixin bütün dövrlərində ən öncül məsələlərdən biri hesab edilib. Gəncləri vətənpərvərlik ruhunda böyütmək üçün nümunələr çoxdur. Torpaqlarımızın bütövlüyü uğrunda müstəsna igidliklər göstərən övladlarımızın hər birinin ömür yolunu nümunə kimi qəbul etmək olar.

Ulu öndər Heydər Əliyevin həyatı, fəaliyyəti və sadə olduğu qədər də qəlbə təsir edəcək tərzdə vətənpərvərliklə bağlı deyimləri gənclərimiz üçün əsl vətənpərvərlik nümunələridir. "Milli qürur hissi hər birimizdə bütün duyğulardan üstün olmalıdır. Hər bir kəsdə vətəndaşlıq hissi, Vətənin taleyi ilə yaşamaq hissi yüksək səviyyədə olmalıdır".

Hər bir azərbaycanlının qəlbində cənab Prezidentimiz İlham Əliyevin bu sözləri hədsiz sevinc, yüksək qürur hissi və dövlətimizin qüdrətinə böyük inam oyadır: Həm müəllimlər, həm valideynlər uşaqları vətənpərvərlik ruhunda tərbiyə etməlidirlər ki, onlar Vətənə bağlı olsunlar, milli ruhda böyüsünlər, milli dəyərlərimizi hər şeydən üstün tutsunlar.

"Bizim Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim Bayrağımız Dağlıq Qarabağda, Xankəndində, Şuşada dalğanacaqdır".

Kollecdə hazırladığımız "Astara şəhidləri", "Milli Qəhrəmanlar", "Milli Qəhrəman Yalçın Nəsirov", "Milli Qəhrəman Mübariz İbrahimov", igid həmyerlimiz, Aprel döyüşlərinin Qəhrəmanı Pəncəli Teymurova, ordu quruculuğuna həsr olunan guşələr diqqət mərkəzindədir.

Milli Ordumuzun zəfər yürüşünə respublikamızın bütün bölgələrində milyonlarla Azərbaycan gəncinin kütləvi hərəkatla dəstək nümayiş etdirməsi bunu parlaq şəkildə sübut etdi. Üç rəngli bayrağa bükülmüş şəhidlərimizin valideynlərinin başlarını dik tutaraq "Vətən sağ olsun" deməsi xalqımızın böyüklüyünün nümayişinə çevrildi.

Mənim bir arzum var. Bu arzum həyata keçsə özümü xoşbəxt hiss edərəm. Arzum budur ki, düşmən tapdağında olan torpaqlarımız qayıtsın və orada məktəblərin birində Vətən övladlarına təmənnasız olaraq bir il riyaziyyat fənnini böyük məmnuniyyətlə tədris edim. İnanıram ki, həmin gün uzaqda deyil.

Bəli, həmin günə az qalıb. Bu yaxınlarda Naxçıvan istiqamətində qazandığımız hərbi uğurlar ümid verir ki, Azərbaycan ərazi bütövlüyünü mütləq bərpa edəcəkdir. Azərbaycanın qətiyyətli və uzaqgörən Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız tezliklə azad olunacaqdır.

Rafiq Əliyev,
Astara rayon Veteranlar
Təşkilatının sədri

# Dövlət Turizm Agentliyi veteranlar üçün istirahət turu təşkil edib



Dövlət Turizm Agentliyinin dəstəyi ilə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları təşkilatının 40 nəfər üzvü üçün "Şahdağ" Turizm Mərkəzinə birgünlük istirahət turu təşkil olunub.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, Qurban bayramı ilə əlaqədar təşkil edilmiş tur çərçivəsində veteranların və ailə üzvlərinin istirahəti üçün hər cür şərait yaradılıb.

Qurum tərəfindən Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq əhalinin müvafiq təbəqəsinin, o cümlədən sovet ordusunda (donanmasında), daxili işlər və dövlət təhlükəsizliyi orqanlarında hərbi xidmətdə olmuş, Vətənin müdafiəsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş veteranlara, habelə əmək veteranlarına sosial diqqət və qayğının göstərilməsi, onların asudə vaxtlarının səmərəli keçirilməsi üçün bu cür turların mütəmadi olaraq həyata keçirilməsi planlaşdırılır.

AZƏRBAYCAN VETERANI

# VETERANIN 70 İLLİK YUBİLEYİ QEYD OLUNUB




Sentyabrın 1-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Veteranlar Şurasının ilk sədri olmuş, ehtiyatda olan polkovnik-leytenant Murad Mürsəlovun 70 illik yubileyi münasibətilə paytaxtın Nərimanov rayonunda yerləşən Daxili Qoşunların "N" saylı hərbi hissəsində təntənəli mərasim keçirilib. Mərasimdə Daxili Qoşunların Baş İdarəsinin və hərbi hissələrinin hərbi qulluqçuları, veteranlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Daxili Qoşunların Veteranlar Şurasının üzvü, şair, pedaqoq Elxan Xəzər qonaqları salamlayaraq, yubiley mərasiminə gəlmiş veteranlara, hərbi qulluqçulara və ictimaiyyət nümayəndələrinə minnətdarlığını bildirdi. O, M.Mürsəlovu respublika veteran hərəkatının fəal üzvlərindən biri, fədakar veteran kimi xarakterizə edərək, onun silahdaşlarının, dostlarının, həmyerlilərinin, bütün onu tanıyanların dərin rəğbətini qazandığını nəzərə çatdırdı.



Daxili Qoşunların Veteranlar Şurasının katibi Yalçın Abbasov M.Mürsəlovun həyat və fəaliyyəti mövzusunda geniş məruzə ilə çıxış etdi. O, bildirdi ki, M.Mürsəlovun mənalı həyat yolu gənc nəsil üçün dəyərli örnəkdir. Murad müəllim SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının tərkibində hərbi xidmət keçib. Onun hərbçi karyerası yüksələn xətt üzrə inkişaf edib. Ayrı-ayrı məsul vəzifələrə təyin olunaraq, Daxili Qoşunların Baş İdarəsində Əməliyyat və döyüş hazırlığı idarəsi rəisinin müavini vəzifəsinədək yüksəlib. Daxili Qoşunların formalaşmasında M.Mürsəlovun bir zabit kimi təqdirəlayiq xidmətləri var. O, müharibə sınağından keçmiş zabitdir. Qarabağda ölümlü-itimli günlərin sarsıntıları yaddaşında silinməz iz buraxıb.

Həmçinin, M.Mürsəlov respublikamızın ərazisində ictimai təhlükəsizliyin qorunması, dövlətçiliyimizə qarşı təxribatların qarşısının alınması yönündə qarşıya qoyulmuş xidməti tapşırıqların yerinə yetirilməsində də fərqlənib.

Məruzəçi daha sonra məlumat verdi ki, M.Mürsəlov "Qüsursuz xidmətə görə" medalının hər üç dərəcəsinə layiq görülüb. Bundan əlavə, hərbi xidmət sahəsinə aid bir sıra digər medallar və döş nişanları ilə təltif edilib. Həmçinin, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin veteranı" fəxri adını daşıyır.

Qeyd olundu ki, M.Mürsəlov veteranların mənafeyinin qorunması, onların həmrəyliyinin möhkəmləndirilməsi, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi yönündə əzmlə çalışır.

Bu gün M.Mürsəlovun övladı və qardaşı övladları hərbi xidmətdə onun yolunu davam etdirirlər.

Y.Abbasov yubilyarı təbrik edərək, ona mühüm ictimai fəaliyyətində uğurlar arzuladı.

Sonra M.Mürsəlovun 70 illik həyat yolunu əks etdirən fotolardan ibarət slaydlar nümayiş etdirildi.

Mərasimdə Daxili Qoşunların Baş İdarəsinin Şəxsi heyət üzrə idarəsində Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi vəzifəsini icra edən polkovnik-leytenant Şahin Bəylərov Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun veterana təbrik məktubunu çatdırdı.

Respublika Veteran Təşkilatı adından M.Mürsəlova C.Naxçıvanski adına yubiley medalı təqdim olundu.

Daxili Qoşunların veteranı, ehtiyatda olan general-mayor Şirin Xəlilov çıxış edərək veteran barədə səmimi ürək sözlərini söylədi.

Daxili Qoşunların Veteranlar Şurasının sədri Çingiz Daşdəmirov təşkilatın adından yubilyarı təbrik etdi.

Veteran, şair, pedaqoq E.Xəzərin M.Mürsəlova həsr olunan şeiri də tədbirdə səsləndirilərək hərarətlə qarşılandı.

"N" saylı hərbi hissənin komandiri tərəfindən imzalanan müvafiq fərman M.Mürsəlova təqdim olundu.

M.Mürsəlov mərasimdə çıxış edərək 70 illik yubileyinin belə yüksək səviyyədə keçirilməsinə görə Daxili Qoşunların Komandanlığına və veteranlara dərin təşəkkürünü bildirdi.

Aparıcı E.Xəzər veteranların yubileylərinin keçirilməsi ənənəsinin nəcib və təqdirəlayiq təşəbbüs olduğunu, belə tədbirlərin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırdı.

Sonda tədbir iştirakçıları xatirə şəkli çəkdirdilər.

*Daxili Qoşunların Veteranlar Şurası*

## Mənalı və şərəfli ömür yolu: Böyük Vətən Müharibəsi veteranı Mürsəl Mürsəlov

1941-ci ilin iyununda Mürsəl M.Ə.Sabir adına Şamaxı Pedaqoji Texnikumunu bitirmişdir. Onun adının yanına şərəfli "müəllim" sözü də əlavə olunmuşdu. Lakin dəhşətli bir xəbər gəncin sevincini yarımçıq qoydu: "Müharibə! Faşist Almaniyası ölkəmizə quldurcasına basqın etmişdir!"

Bu gözlənilməz xəbərdən Mürsəl sarsıldı, lakin özünü tez ələ aldı. Tezliklə özünü hərbi komissarlığa çatdırdı. Burada mitinq keçirilirdi.İştirakçılar 18 yaşlı Mürsəli də diqqətlə dinlədilər.O dedi: "Azğın faşistləri Vətənimizin torpağını, daşını qurd kimi yalamağa qoymamalıyıq. Onları yuvalarına qədər qovmalıyıq. Mən könüllü olaraq cəbhəyə gedirəm və hamını bela hərəkət etməyə çağırıram."

Gəncin bu alovlu nitqindən sonra hərbi komissar onun xahişini nəticəsiz qoya bilməzdi. Mürsəl könüllü olaraq Sovet Ordusu sıralarına göndərildi. Lakin cəbhəyə deyil, avtomobil nəqliyyatı bölməsinə. Bu isə M.Mürsəlovu razı salmadı. O, cəbhəyə göndərilməsini təkidlə xahiş edirdi. Nəhayət, istəyinə nail oldu.

Top mərmiləri... Mina partlayışları... Güllə vıyıltıları... Bu arzuolunmaz həyata Mürsəl tez alışdı. Lakin güllələrdən biri onu səngərdən müvəqqəti ayırdı. Qısa müddətli müalicədən sonra yenidən döyüş meydanına qayıtdı. Faşistlərlə əlbəyaxa döyüşlərin birində ikinci dəfə ciddi yaralandı. Yenidən hərbi xəstəxana, düşmənə nifrətdən doğan döyüş həsrəti... Bu dəfə Mürsəl öz cəbhə dostlarına Ukrayna torpağında qoşuldu.

Çovğunlu bir gün idi, hitlerçilər Dneprin sol sahilində istehkamlardan atəş açaraq hücumun qarşısını almağa çalışır, döyüçülərimizi çaya yaxın buraxmırdılar. Böyük itki bahasına batalyon sahilə çıxa bildi. Komandirlərdən biri də sağ qalmamışdı. Mürsəl komandirliyi öz üzərinə götürdü. Faşistlər tankların köməyi ilə 6 dəfə hücuma keçməyə cəhd göstərdilər. Lakin hər dəfədə məğlub olub geri çəkildilər.

Axşamüstü ara sakitləşmişdi. Lakin "ehtiyatı əldən vermək olmaz" - deyə Mürsəl fikirləşirdi. Elə bu an əsgərlərdən birinin həyacanlı səsi eşidildi:

- Yoldaş starşina, qarın üzərindəki təpəciklərə baxın! Səngərin yaxınlığında qabartılar görünürdü. Həmin"təpəcik"lərdən birinə atəş açılanda bağırtı səsi ətrafa yayıldı."Təpəcik"qalxıb yenidən qarın üzərinə yatdı. Düşmənin hiyləsi baş tutmadı. Pulemyot düşməni biçməyə başladı. Lakin az sonra patron qurtarmağa başladı. Yeganə yol əlbəyaxa vuruşa başlamaq idi. Mürsəl "Ardımca!" - deyərək irəli atıldı... O, gözlərini açanda özünü xəstəxanada gördü. Sonra həkimdən öyrəndi ki, ayaqlarına səkkiz güllə dəymişdi. Bu dəfə həkimlərin qərarı qəti və ciddi oldu: arxa cəbhəyə.

Lakin Mürsəl razılaşmadı, heç olmasa sürücü kimi cəbhəyə göndərilməsini təkidlə xahiş etdi. Nəhayət, onun xahişinə əməl olundu. Mürsəl tank briqadasına göndərildi.Yenidən odlu-alovlu döyüş yolları...Bu yollar Moldaviya, Bolqarıstan, Macarıstan, Rumıniya və Çexoslovakiyadan keçdi. Onun tərcümeyi-halında yeni fədakarlıqlar yazıldı....

9 May- Qələbə günü! Bu şad xəbəri Mürsəl Praqada eşitdi. Faşist Almaniyası diz çökmüşdü. Lakin müharibə hələ qurtarmamışdı. İndi Uzaq Şərqdə müharibə alovunu söndürmək lazım idi.

Port-Artur ətrafında gedən döyüşlərin birində düşmən mərmisi Mürsəlin idarə etdiyi tankı zədələdi. Cəsur sürücü-mexanik hər iki ayağını itirdi. Bu, döyüşçü Mürsəl Mürsəlovun son döyüşü oldu.

Vətən uğrunda döyüşlərdə öz müqəddəs borcunu vermiş Mürsəl Azərbaycana 1947-ci ildə qayıtdı. O, evə gələndə qoltuq ağaclarının köməyi ilə, protezlər üzərində xeyli məsafəni qət etməyi öyrənmişdi.

Xalqıma necə xeyir verim sualları onu narahat edirdi. Çox götür-qoydan sonra qərarı qəti oldu: ali təhsil almaq. O, ali təhsilli tarix müəllimi oldu, inspektor, rayon partiya komitəsinin təlimatçısı vəzifələrində etimadı şərəflə doğrultmuşdu. Bakı Ali Partiya məktəbini müvəffəqiyyətlə bitirmişdir. Ondan bu qədər qüvvəni haradan aldığını soruşanda, deyir: "Vətənimdən və xalqımdan". Sonralar o, Ağsu Rayon İstehlak Cəmiyyətinin sədri oldu. Ailəsi ilə birlikdə Bakı şəhərinə köçdü. O, uzun müddət Bakı Kooperativ Texnikumunda tədris işləri üzrə müdir vəzifəsində çalışdı.

Mürsəlov keçdiyi döyüş yolu,vətən tərəfindən yüksək qiymətləndirilərək çoxlu orden və medallarla təltif edildi.

Yorulmaz insan, Böyük Vətən müharibəsinin fəxri veteranı Mürsəl Mürsəlov sonralar Aşıq Bilal yaradıcılığından dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi adını aldı, alim oldu.

O, dəfələrlə məktəblilərlə, sənaye müəssisələrində görüşlərdə həvəslə iştirak edərək, öz döyüş yollarından söhbət açmışdır.

"Əsl insan haqqında povest"in qəhrəmanı Mürsəl Mürsəlov 1984-cü ildə dünyasını dəyişərək, əbədiyyata qovuşdu.

*Ağsu rayon Veteranlar Təşkilatının sədri Cəmaləddin Zeynalov*
*Ağsu rayon Tarix Diyarşünaslıq Muzeyinin əməkdaşı Ülkər Həmidova*

# Герои не забываются!

## С ТОПОРОМ ПРОТИВ ТАНКА

Однажды в августе 1941 г. вблизи штабной кухни одной из частей группа фашистов напала на командира полка. Повар Иван Середа приказал своему помощнику доваривать обед, а сам со связкой гранат бросился на выручку командиру, зашел с тыла и метким броском гранаты, уничтожив 14 фашистов, спас командира.



На следующий день разгорелся сильный бой. Наши бойцы шли в атаку, немцы упорно оборонялись. В центре своей линии они сосредоточили группу отборных автоматчиков; но ничто не помогало фашистам - наши бойцы повели наступление с трех сторон, полукольцом, все время сужая его. Внезапно на помощь фашистской пехоте подошел танк и, выпустив несколько пулеметных очередей, заставил наших бойцов залечь. Ободренные немцы, оправившись, двинулись в контратаку и подступали все ближе. Увидев это, Середа, как и в прошлый раз, оставил кухню на попечение своего помощника, взял в одну руку связку гранат, в другую топор, подобранный в захваченном немецком окопе, и стал подкрадываться к танку. Фашистские автоматчики заметили его и открыли огонь. Желая обмануть их, Середа сделал вид, что сражен пулей, и упал в траву. Фашисты прекратили огонь, а Середа полз. Наконец он запрятался в кустах. Через мгновение вражеский танк поравнялся с ним. Тогда Середа вспрыгнул на машину и ударил топором по стволу пулемета. Танк остановился. С криком <<ура!>> бросились красноармейцы в атаку и захватили танк. Вражеская атака была отбита.

В другой раз Середа с группой разведчиков пробрался во вражеский тыл. Навстречу по шоссе двигалась колонна немецких танков и мотоциклистов. Фашисты заметили наших бойцов крыли огонь. Разведчики отвечали им, обстреливали из пулемета, забрасывали гранатами. Середа подобрался к одному танку и связкой гранат подорвал его. В бою был убит пулеметчик. Середа взял пулемет и начал поливать свинцовым огнем вражеских мотоциклистов, уничтожив 20 из них. Когда иссякли все боеприпасы, герой бросился в рукопашную схватку, кулаком оглушил трех фашистов и доставил их в свою часть.

Из донесения пом. нач. политуправления Северо-Западного фронта по работе среди комсомольцев

## КОМИССАР ЗАЙЦЕВ

Когда я слышу слово «комиссар», перед моими глазами встает образ батальонного комиссара Зайцева - человека немного више среднего роста, могучего сложения, волевого командира, чье слово - закон для всех окружающих, талантливого организатора, неутомимого пропагандиста - словом, до мозга костей большевика.

Утром 19 августа батальонный комиссар Зайцев пришел в Н-скую часть, готовящуюся к наступлению. Он быстро ознакомился с положением дел и дал задание политрукам подготовить бойцов к атаке. Первую беседу Зайцев провел сам. Говорил он тихо, но каждое его слово проникало до глубины души красноармейцев, зажигало сердца ненавистью к зверям-фашистам, призывало к мщению за кровь женщин и детей, за разрушенные города и села, за вытоптанные поля. Глубокая вера в нашу победу, презрение к смерти во имя этой победы, стремление к беспощадному уничтожению врага - все эти чувства, владевшие комиссаром, передались бойцам.



Подразделения накопились на рубеже для атаки. По заданию батальонного комиссара политработники переползали от бойца к бойцу, еще и еще раз напоминая им о долге перед Родиной, о священной присяге. В воздухе стоит гул артиллерийской канонады.

Зайцев посмотрел на часы. Лицо его сосредоточенно и полно решимости.

- Командир полка, — говорит он стоящему рядом капитану,— время начинать.

И перед залегшими цепями атакующих встает богатырская фигура комиссара.

- За Родину, вперед, товарищи! - проносится над полем боя. С винтовкой наперевес бросается вперед комиссар Зайцев. За ним с могучим русским «ура-а!» устремились бойцы. Вдруг он пошатнулся - вражья пуля пробила плечо комиссара. Но разве рана может остановить презирающего смерть большевика? И Зайцев выпрямляется.

«Вперед, за мной!» - гремит его команда.

...Вторая пуля скосила отважного комиссара. Он упал. В вытянутых руках зажато устремленное к фашистским окопам оружие. Даже мертвый, комиссар Зайцев указывал бойцам путь к уничтожению банд людоедов.

М. Ляховский
Бюллетень № 3 для чтецов и агитаторов от 31 августа 1941 г.
Изд. красноармейской газеты 30-й армии Западного фронта «Боевое Знамя»

## ОТВАЖНЫЙ ШОФЕР

В нашем подразделении знают шофера-коммуниста Ялового kak бесстрашного водителя. Где трудно и опасно - там Яловой. И всегда он выходит победителем. Вот и на этот раз он выполниял сложное боевое задание. Следуя по дороге с боеприпасами, он был обстрелян фашистским стервятником. Не оставляя машины, Яловой мчался к указанному месту. Но здесь случилось неожиданное. На пути у него стояли два прицепа с боеприпасами и цистерна с горючим.

Гитлеровский бандит... решил уничтожить стоящую на дороге машину. Спикировав над прицепами, он бросил несколько бомб. Один из прицепов загорелся. Пламя перебрасывалось на цистерну. Это заметил Яловой. Под обстрелом пулеметного огня он вскочил в кабину и быстро вывел машину с горючим.

Мужество и бесстрашие проявляют наши шоферы в борьбе с германским фашизмом. Они готовы на все во имя Родины и советского народа.

Батальонный комиссар И. Ковырин
Бюллетень №3 для чтецов и агитаторов от 31 августа 1941 г.
Изд. красноармейской газеты 30-й армии Западного фронта «Боевое Знамя».

## ГЕРОЙ СОВЕТСКОГО СОЮЗА ВАСИЛИЙ ФЕДОРОВИЧ МИХАЛЬКОВ

В 4 ч. 15 м. 22.6. 1941 года пограничная застава, на которой находился младший сержант Михальков, подверглась нападению со стороны румыно-немецких войск. Противник открыл интенсивный ружейный, пулеметный и минометный огонь. На здание заставы было сброшено 8 зажигательных и фугасных бомб. Находившиеся на заставе бойцы и командиры укрылись в блокгаузах и оказали упорное сопротивление противнику.

Сломив сопротивление часовых, противник повел наступление на заставу. Силы были неравные. Горсточка отважных пограничников противостояла свыше чем батальону румынских и немецких солдат, поддерживаемых огнем минометов и артиллерии.

Весь день шел упорный бой. Пограничники заставы отразили до 11 атак вражеской пехоты. Два блокгауза были разбиты снарядами. Пограничники укрылись в единственном оставшемся не разрушенным блокгаузе.

Наступила ночь. Противнику удалось пробраться и укрыться в одном из разрушенных блокгаузов. Надо было выбить его оттуда во что бы то ни стало. Эту задачу начальник заставы возложил на сержанта Михалькова.

С четырьмя бойцами отважный пограничник стал, пробираться к блокгаузу, где засело до взвода немецко-румынских солдат. С на-ступлением темноты противник приступил к минированию подстунов к занятым им позициям. Мишльков с группой бойцоз, несмотря на непрекращающийся пулеметный огонь, пробирался вперед. По пути пограничники встретили четырех вражеских солдат, производивших минирование дороги, и уничтожили их. Выждав несколько секунд, Михальков скомандовал: «За мной!», и отважная пятерка пограничников бросилась на разбегавшихся в панике фашистов. Сам Михальков заколол 6 солдат и застрелил офицера, пытавшегося остановить разбегавшихся в панике солдат. Им же было уничтожено 2 пулеметных расчета.

Очистив блокгауз от противника, группа пограничников во главе с Михальковым удержала его до подхода подкрепления.

В настоящее время Михалькову Василию Федоровичу присвоено звание лейтенанта. Место службы его - 25-й пограничный полк войск НКВД.

Звание Героя Советского Союза присвоено Указом Президиума Верховного Совета СССР от 26 августа 1941 г.

Из донесения пом. нач. политуправления Южного фронта по работе среди комсомольцев ЩЕРБАТЫХ

AZƏRBAYCAN VETERANI

# Müdafiə naziri pilota görə işdən çıxarıldı



1 iyul 1911-ci ildə Sovet hərbi sərkərdəsi, Sovet İttifaqı marşalı (1978), Sovet İttifaqı Qəhrəmanı (1980), SSRİ müdafiə naziri (1984-1987), Böyük Vətən müharibəsinin iştirakçısı Sergey Leonidoviç Sokolov dünyaya gəlib.

Sokolov 18 iyun Pusiya imperiyasının Tavrida quberniyasının Yevpatoriya şəhərində (indiki Krım) qulluqçu ailəsində anadan olub. 1917-ci il Oktyabr inqilabından sonra ailəsi ilə birlikdə Vyatski quberniyasının Kotelniç şəhərinə köçüb və gələcək marşalın uşaqlıq illəri bu şəhərdə keçib.

1932-ci ildə Qızıl Ordu sıralarına daxil olub. Komsomol göstərişi ilə Qorki şəhərində yerləşən zirehli tank məktəbinə daxil olmaq hüququ qazanıb. Qəbul imtahanlarını müvəffəqiyyətlə verən S. Sokolov 1932-1934-cü illərdə bu məktəbin kursantı olub.

Ordu hazırlığını əla qiymətlərlə başa vuran Sokolov Uzaq Şərqə tank qoşunlarında hərbi xidmətə göndərilib, burada müxtəlif vəzifələrində işləyib. O, tank briqadasının komandiri kimi 1938-ci ildə Xasan gölü ətrafındakı döyüşlərin iştirakçısı olub.

***Sokolov Böyük Vətən müharibəsi dövründə - 1941-ci ilin iyun-sentyabr aylarında tank alayının ştab rəisi kimi Qərb cəbhəsində döyüşlərdə iştirak edib. 1941-ci ilin oktyabrından Fəhlə-Kəndli Qızıl Ordusunun Avtozirehli tank idarəsi rəisinin böyük köməkçisi, 1942-ci ilin iyun ayından bu idarədə ştab rəisi, 1943-cü ilin yanvar ayından 1944-cü ilin mart ayınadək Karel cəbhəsinin zirehli tank və mexanikləşdirilmiş qoşunlarını İdarəetmə komandanlığının ştab rəisi olub.***

1967-ci ildə SSRİ müdafiə nazirinin birinci müavini vəzifəsinə təyin edilib. O, 12 aprel 1967-ci ildə ordu generalı, 17 fevral 1978-ci ildə isə Sovet İttifaqı Marşalı rütbəsinə layiq görülüb.

Sovet İttifaqı Qəhrəmanı, marşal Sergey Sokolov 1984-1987-ci illərdə SSRİ-nin Müdafiə naziri postunu tutub. O, 1987-ci ildə alman pilot Matias Rustun idarə etdiyi kiçik təyyarə Moskvanın Qızıl Meydanına icazəsiz, maneəsiz endiyinə görə vəzifədən azad olunub.

Sergey Sokolov 2012-ci ildə 101 yaşında vəfat edib.

# “Məni toplu məzara atmışdılar, iniltimi eşidib, çıxardılar”

***İkinci Dünya müharibəsinin azərbaycanlı şahidinin acılı-şirinli xatirələri***

Ömrünün ən fəal dövrünü İkinci Dünya müharibəsinə həsr edən, ağır zərbələr alan həmvətənlərimiz çox olub. İllər keçsə belə, o yaraların izi hələ də sağalmayıb, yaddaşlardan silinməyib. Böyük Vətən müharibəsi Azərbaycandan çox uzaqda getsə də, ölkəmiz onun ağırlığını heç də aktiv hərbi əməliyyatların aparıldığı ərazilərdən az hiss etməyib. Həmçinin qələbə qazanılmasında da Azərbaycanın və azərbaycanlıların rolu az olmayıb.

Böyük Vətən müharibəsində əməyi keçən, igidlik göstərən azərbaycanlılardan biri də Siyəzən rayonunun Böyük Həmyə kəndində yaşayan 97 yaşlı Əmrah Məmmədovdur. II Dünya müharibəsi veteranı Əmrah Hacıəli oğlu Məmmədovun yaşının bir əsrə yaxın olmasına baxmayaraq, ürəyi çalışmaq və yaşamaq əzmi ilə döyünür.

Danışır ki, o, 1921-ci ildə Böyük Həmyə kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Rusiyada hərbi məktəbə qəbul olub: "Lakin müharibə başladığı üçün 1942-ci ilin yanvar ayında müharibəyə getdim. Əvvəlcə Rusiya ərazisində almanlara qarşı mübarizə apardım və çox zülmlər, acılar gördüm. Gözümün önündə dostlarımı itirdim və günlərlə özümə gələ bilmədim".

Yaşlı veteran müharibədə başına gələn qəribə və dəhşətli bir hadisəni də danışır: "Döyüş zamanı ağır yaralandım. Həmin vaxt ölmüş əsgərlərin hamısını bir yerə yığır, sonra aparıb toplu məzarda dəfn edirdilər. Məni də ölü bilib meyitlərin yanına qoyublar. Əvvəlcə böyük quyular qazırdılar, meyitləri at arabaları ilə aparıb ora tökürdülər. Məni də aparıb o quyuya atmışdılar".

"Meyitləri atıb qayıdanda tibb bacısı xırıltı səsi eşidib. Baxanda görüb ki, hələ ölməmişəm və məni dərhal hospitala aparıblar. Orada müalicə olundum. Hospitaldan çıxandan sonra mübarizəmi Ukrayna ərazisində apardım. Vuruşduğum alayda tək azərbaycanlı mən idim" - deyə xatirələrini vərəqləyir qocaman veteranımız.

Müharibədə tankçı olduğunu deyən Əmrah baba faşizm üzərində qələbədə Bakı neftinin böyük rol oynadığını bildirir: "Rus əsgərlər özləri etiraf edirdilər ki, əgər Bakı yanacağı olmasaydı, məğlub olardıq. Çünki almanların silahları çox güclü idi. Deməli olar ki, qələbənin ilk faizi bizim neftimizin payına düşür. Həmin vaxt bir daha azərbaycanlı olduğum üçün fəxr etdim".

Müsahibimiz danışır ki, müharibədən sonra ona Ukraynada qalmağı təklif etsələr də, o, vətənə qayıtmağı üstün tutub: "1946-cı ilin yay ayları idi. Qələbə qazandıqdan sonra kənddə bir neçə gün istirahət etməyə getdik. O kənddə bir qadın vardı, mənə vurulmuşdu. Məndən orda qalmağı, onunla ailə qurmağı xahiş etdi. Ancaq məni vətənimdə gözləyənlərin olduğunu dedim və vətənə qayıtdım. Burada ailə qurdum".

Dediyinə görə, Ukraynanın 5-ci prezidenti Pyotr Poroşenko Əmrah Məmmədovu müharibədə qəhrəmalığına görə şərəf ordeni ilə təltif edib.

Müharibədən sonra kəndlərinə qayıdan Ə.Məmmədov Gəncədə indiki Azərbaycan Dövlət Aqrar Universitetində aqronomluq ixtisası üzrə təhsil alıb. Təhsilini bitirdikdən sonra uzun müddət aqronom işləyib.



Hazırda 8 övladı, 40 nəvəsi, 68 nəticəsi, 3 kötücəsi olan 97 yaşlı Əmrah baba 1 ildir ki, həyat yoldaşını itirib və hələ də hər gün onun üçün göz yaşı tökür.

Qəhrəman veteran Qarabağ dərdimizdən də danışır, ermənilərin hələ o dövrdə belə, xain niyyətli olduğunu vurğulayır: "Sıralarımızda ermənilər də var idi. Ermənilər bizə qarşı nifrətlərini elə o vaxt da büruzə verirdilər. Böyük Vətən müharibəsi vaxtı da satqınlıq edirdilər".

Həmsöhbətimiz ermənilərin satqınlığı ilə bağlı bir xatirəsini də bizimlə bölüşüb: "Bir gecə əmr gəldi ki, sübhdən macarlara hücum edəcəyik. Mən aramızdakı erməni əsgərinin satqınlıq edəcəyindən şübhələndim və gedib komandirimizə məlumat verdim. Çox keçmədi ki, gəlib həmin erməni əsgərini apardılar. Məlum oldu ki, o, artıq macarlara hücum haqqında məlumat ötürüb. Mənim sayıqlığım nəticəsində biz sağ qaldıq".

"Həmin gecə əsgərlər məni bir qəhrəman kimi atıb-tuturdular. Tək azərbaycanlı olmağıma baxmayaraq, hər zaman azərbaycanlı adını üstün tutmağa çalışdım. İstəmirdim ki, mənim hər hansısa səhv hərəkətimə görə, millətimin adına söz gəlsin" - deyən keçmiş döyüşçü ötən illəri həm kədərlə, həm qürurla xatırlayır.

***Leyla Abdullayeva***

## Allah rəhmət eləsin

Respublika Veteranlar Təşkilatının Rəyasət Heyəti general-mayor Abbasəli Novruzova həyat yoldaşı

**Raisə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hünlə başsağlığı verir

---

Nizami rayon Veteranlar Təşkilatının kollektivi Sosialist Əməyi Qəhrəmanı

**Ağamuradov Nizaməddin Ağamurad oğlunun**

vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Əziz oxucular, “Azərbaycan Veteranı” qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, “Azərbaycan Veteranı” qəzetinə abunə olmaq üçün “Azərmətbuatyayımı” ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**

**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*“Azərbaycan Veteranı” qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu:*** *012 440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə “Azərbaycan Veteranı” qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və “Veteran Nəşriyyatı” mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1290*